QANUN № 02 (352), 2024, s. 171-175

**Cəlilova Aytən İsa qızı,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Vergi hüququ" ixtisaslaşması üzrə magistrantı
E-mail: celilayten28@gmail.com

**UOT 336.225.66**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.52**

# SƏNAYE VƏ TEXNOLOGİYALAR PARKLARINA TƏTBİQ EDİLƏN VERGİ GÜZƏŞTLƏRİ

***Açar sözlər:*** *vergi güzəştləri, sənaye və texnologiyalar parkları.*

***Ключевые слова:*** *налоговые льготы, индустриальные и технологические парки.*

***Keywords****: tax payments, industrial and technology parks.*

Günümüzdə vergi hüququ ən önəmli hüquq sahələrindən biridir. Belə ki, vergilər gəlir əldə edən hər bir fiziki və hüquqi şəxsi yaxından maraqlandığı mövzudur. Hər hansı bir dövlətin rezidenti olan şəxs həm ölkə daxilində, həm ölkədən kənarda əldə etdiyi bütün gəlirlərindən qanunla nəzərdə tutulmuş qaydada və həcmdə vergilərini ödəməyə borcludur [1, m. 73]. Vergi öhdəliyi, bir növ, məcburi xarakter daşıyır. Lakin dövlət tərəfindən müəyyən iqtisadi, sosial və siyasi məqsədlərə nail olmaq üçün bir qisim vergi öhdəliklərinin yüngülləşdirilməsinə yönələn tədbirlər həyata keçirilir ki, onlardan ən başlıcası vergi güzəştləri və azadolmalarıdır.

Vergi güzəştləri dövlətin vergi siyasətinin həyata keçirilməsində ən vacib alətdir. Bu baxımdan tətbiq edilən hər bir vergi güzəşti müəyyən məqsədlərə xidmət etməlidir: milli iqtisadiyyatın yüksəldilməsi, ayrı-ayrı sahələrin və ərazilərin inkişafı, elmi tədqiqatların stimullaşdırılması, vergi ödəyicilərinin müəyyən qruplarına (həm fiziki şəxslər, həm də hüquqi şəxslərə) dəstək göstərilməsi, xeyriyyəçilik və s. [10].

Vergi güzəşti ilə bağlı həm iqtisadçıların, həm də hüquqşünasların müxtəlif fikirləri mövcuddur. Lakin vergi hüquq ədəbiyyatında daha çox işlənənləri diqqətinizə təqdim etmək istərdim.

V.V. Korovkinə görə, vergi güzəştləri digər vergi ödəyicilərinə nisbətən vergi öhdəliklərinin ölçüsünü azaltmaq məqsədilə bəzi vergi ödəyicilərinə verilmiş imtiyazlardan ibarətdir [4, s. 125]. A.V.Malkonun verdiyi şərhə görə, vergi güzəşti hüquqi güzəştin bir növüdür və bu növ subyektin mövqeyinin qanuni yüngülləşdirilməsini özündə ehtiva edir, onun maraqlarını daha dolğun təmin etməsinə imkan verir. Onun fikrincə, vergi güzəşti həm əlavə, xüsusi hüquqlar (imtiyazlar) verən, həm də öhdəliklərdən azad edən qanuni fayda növüdür [9, s. 367].

Qeyd etdiyimiz kimi, vergi güzəştlərindən fərqli məqsədlər üçün istifadə edilir. Bu məqsədlərdən ən birincisi həm ölkə daxilində, həm də xaricdən investisiya qoyuluşlarını stimullaşdırmaqdır. Yəni belə olan halda xarici hüquqi şəxslər və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarlar hər hansı iqtisadi sahədə istehsal və ya xidmət göstərmək məqsədi ilə innovativ yeniliklərin tətbiq olunması və ya öz fəaliyyət sahələrini genişləndirmək üçün digər ölkələrdə filial və

nümayəndəliklərini yaradaraq gəlirlərini artırmaqla ölkə iqtisadiyyatına da müsbət yöndə yardım etmiş olurlar.

Xarici hüquqi şəxslərə vergi güzəştlərinin tətbiq edilməsi ölkənin sosial-iqtisadi fəaliyyəti ilə yanaşı, siyasi maraqlarına da uyğundur.

Vergi güzəştlərinin tətbiq olunmasının digər məqsədi isə ölkədə işsizliyin azaldılmasına nail olmaqdır. Vergi güzəştləri vasitəsilə vergi ödəyiciləri olan sahibkarlıq subyektləri tərəfindən əldə olunacaq mənfəət və gəlirlərin müəyyən bir hissəsinin bu subyektlərdə qalması səbəbi ilə əhalinin əmək fəaliyyətindən kənar qalan böyük əksəriyyəti işləməyə təşviq ediləcəkdir. Digər bir məqsəd isə ümumiyyətlə istifadə olunmayan və ya az istifadə edilən iqtisadi fəaliyyət növlərinin yenidən bazara qayıtmasını stimullaşdırmaqdır. İqtisadi cəhətdən zəif inkişaf etmiş rayonlarla yüksək iqtisadi imkanlara malik rayonlar arasındakı fərqi minimuma endirmək də vergi güzəştlərinin məqsədlərindən biridir. Bu, müxtəlif üsullarla həyata keçirilə bilər. Məsələn, ölkəmizin hər hansı bir bölgəsində istehsal edilən məhsulların istehsalına və ixracına vergi güzəştləri tətbiq oluna bilər.

Ümumiyyətlə, vergi güzəştləri aşağıdakı formada təsnifləşdirilir.

1) ayrı-ayrı subyektlərə verilən güzəştlər;
2) obyektlərə verilən güzəştlər;
3) vergi dərəcələri üzrə güzəştlər;
4) müddət üzrə güzəştlər.

Sənaye və texnologiyalar parkları da vergi güzəştlərindən geniş şəkildə tətbiq edildiyi vergi subyektlərindəndirlər.

Ölkədə sənayeləşmə prosesini sürətləndirmək və iqtisadi fəaliyyətləri genişləndirmək üçün müvafiq ərazilərin yaradılması müasir dövrdə mühüm əhəmiyyət kəsb edir. Belə ərazilərdən biri də ölkə iqtisadiyyatının inkişafına mühüm töhfə verən sənaye və texnologiyalar parklarıdır. Məlum olduğu kimi, hər bir yeni qurumun yaradılması üçün ilk növbədə onun hüquqi və institusional bazasının yaradılması vacib şərtlərdəndir. Sənaye və texnologiyalar parklarının yaradılması prosesi də bu baxımdan istisna deyil. Ölkəmizdə son illərdə sənaye və texnologiyalar parklarının yaradılmasının hüquqi bazasını təşkil edən bir çox normativ hüquqi sənədlər qəbul edilmişdir.

Sənaye parkları sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədləri üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir. Sənaye parklarının yaradılmasının xüsusi qayələri vardır və bunlar aşağıdakılardır:

- innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi;
- iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi;
- ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin artırılması;
- əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması [5, b. 2].

Texnologiyalar parkı (texnopark) innovasiya məhsulunun və yüksək texnologiyaların hazırlanması, işlənilməsi və ya təkmilləşdirilməsi məqsədi ilə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılması, proqram təminatlarının hazırlanması, inkişaf etdirilməsi, onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqi (kommersiyalaşdırılması) üçün zəruri infrastrukturu, maddi-texniki bazası və idarəetmə qurumları olan ərazidir. Texnoparkların missiyası regional inkişafı, de-sənayeləşməni stimullaşdırmaq, həmçinin kommersiya və sənaye innovasiyalarının həyata keçirilməsini asanlaşdırmaqdır. Texnoparkların fəaliyyəti regionun elmi və ya texniki mədəniyyətini zənginləşdirir, iş yerləri və əlavə dəyər yaradır.

Texnoparkların yaradılmasının əsas vəzifələri aşağıdakılardır:

a) bilik və ixtiraların texnologiyalara çevrilməsi;

b) texnologiyanın kommersiya məhsuluna çevrilməsi;

c) məlumat-intensiv firmaların formalaşması;

d) yüksək texnologiyalı biznes sahəsində müəssisələrin dəstəklənməsi.

Texnoparkların yaradılmasında əsas məqsədlər bunlardır:

- ərazinin məşğulluq səviyyəsinin yüksəldilməsi;
- qabaqcıl innovasiya texnologiyalarının işlənilməsi və belə texnologiyaların ölkəyə axınının təmin edilməsi;
- ərazinin elmi-texniki potensialından resurs ehtiyatlarından daha dolğun istifadə edilməsi;
- əhalinin elm-təhsil və peşəkarlıq səviyyəsinin yüksəldilməsi;
- elm, təhsil və istehsalın inteqrasiyanın gücləndirilməsi;
- ümumilikdə iqtisadiyyatın inkişafının ən üstün forması olan innovasiya yönümlü inkişafın təmin edilməsi [6, s. 256].

Modern emal quruluşuna sahib olan sənaye və texnologiyalar parklarının yaradılması ölkədə sənaye sahələrinin inkişafına dəstək verən dövlət siyasətinin reallaşdırılmasına istiqamətlənmişdir. Çünki bu parkların yaradılması iqtisadiyyatın eksport bacarığının, həmçinin çəkişmə bacarıqlı importu əvəzləyən məmulatların emalının çoxaldılması, işlərin həyata keçirilməsi, modern avadanlıqların cəzb olunması kimi mühüm problemlərin həll edilməsi nöqteyi-nəzərindən xüsusən vacibdir [7, s. 138]. Bu parkların təşkili həmçinin qeyri-neft sektorunun inkişafına, elm-tutumlu iqtisadiyyatın təşəkkül tapmasına, investisiya cəlbediciliyinin artmasına, sahibkarlığa yardım edilməsinə, əhalinin işsizlik səviyyəsinin aşağı düşməsinə kömək edəcəkdir.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 106.1.13-cü maddəsinə görə, "müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslərin sənaye və texnologiyalar parkındakı fəaliyyətdən əldə etdikləri gəlir – qanunvericiliyə uyğun olaraq sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq - 10 il müddətinə mənfəət vergisinin ödənilməsindən azad olunurlar" [2, m. 106].

Vergi Məcəlləsinin 13.2.52-ci maddəsinə görə, sənaye parkının rezidenti dedikdə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada sənaye parkının qeydiyyat şəhadətnaməsini almış və sənaye parkında fəaliyyət göstərən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs başa düşülür. Vergi Məcəlləsinin 13.2.53-cü maddəsinə görə, texnologiyalar parkının rezidenti dedikdə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada texnologiyalar parkının qeydiyyat şəhadətnaməsini almış və texnologiyalar parkında və ya texnologiyalar parkından kənar fəaliyyət göstərən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs başa düşülür [2, m. 13].

Sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunumuşlar.

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan sənaye parklarında tətbiq edilmiş idxalda ƏDV və gömrük güzəştləri nəticəsində rezidentlər bu günə qədər 428,6 milyon manatdan çox vəsaitə qənaət ediblər. İndiyədək sənaye zonalarında 108 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan artıq 60-ı fəaliyyətə başlayıb. Sahibkarlar tərəfindən bu günədək sənaye zonalarına 6,4 milyard manat-

dan çox investisiya yatırılıb və 10100-dən çox daimi iş yeri yaradılıb.

Sənaye zonaları ölkənin qeyri-neft sektorunun inkişafında mühüm rol oynayırlar. Belə ki, 2022-ci ilin I yarısında 1,3 milyard manatlıq məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 14,9%, qeyri-neft sənaye məhsullarının ixracında 33,1% (543,9 mln. manat) olub. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 50-dən çox ölkəsinə ixrac edilib [8, s. 1].

Göründüyü kimi, sənaye və texnologiya parklarının yaradılması və həmin vergi subyektlərinə müvafiq vergi güzəşt və vergi azadolmalarının tətbiq edilməsi ölkə iqtisadiyyatına və investisiya fəaliyyətinin inkişaf etdirilməsinə mühüm təsiri vardır.

**Nəticə**

Araşdırma nəticəsində belə bir qənaətə gəlinmişdir ki, vergi güzəştləri və azadolmaları institutları istənilən ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatında mühüm əhəmiyyətə malikdir. Bunun səbəbi cəmiyyətin hər bir üzvünün güzəşt və azadolmalardan istifadə edə bilməsi imkanının olması ilə bağlıdır. Dövlətlər ölkə əhalisinin layiqli həyat səviyyəsinin təmin olunması üçün bu tədbirlərin görülməsində, investisiya fəaliyyətinin inkişaf etdirilməsində xüsusilə maraqlıdır.

**İstifadə edilmiş mənbələr:**

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan əlavə və dəyişikliklər). – Bakı: Qanun, – 2019, – 96 s.

2.Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Xüsusi Hissə, 102-106-cı maddələr // 11 iyul 2000-ci ildə qəbul edilmişdir. . – Bakı: Hüquq yayın evi, – 2023.

3. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // 26 dekabr 2014-cü ildə qəbul edilmişdir (22 sentyabr 2020-ci ildə olan dəyişikliklər): [Elektron resurs]/URL: https://e-qanun.az/framework/28964

4. Seyfullayev, İ.Z .Vergi güzəştlərinin səmərəliliyinin qiymətləndirilməsinin nəzəri-praktiki məsələləri // – Bakı: Azərbaycan vergi jurnalı, – 2012, – s.125-135.

5. "Sənaye parkları haqqında nümunəvi əsasnamə"nin təsdiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı // 24 aprel 2013-cü ildə qəbul edilmişdir (19 iyul 2023-cü ildə olan dəyişikliklər): [Elektron resurs]/URL: https://e-qanun.az/framework/25657

6. Xəlilov A.İ., Nəbiyev A.X. "Firma iqtisadiyyatı və sahibkarlıq" Dərslik. – Bakı:"MBM " – 2014. – s. 256-258

7. Ölkə iqtisadiyyatının inkişafında elmi innovasiyaların rolu // Beynəlxalq elmi – praktik konfransın materialları. – Bakı: – 2016.

8. [Elektron resurs]/URL: https://www.taxes.gov.az/az/post/2027

9. Коровкин, В.В. Основы гипотезы сбора налогов. – М., 2016. – с. 148.

10. Пансков В. Г. Налоговые льготы: теория и практика применения // Экономика. Налоги. Право, – 2016, № 1. – с. 121

**Джалилова Айтен Иса гызы**

## НАЛОГОВЫЕ ЛЬГОТЫ ДЛЯ ПРОМЫШЛЕННЫХ И ТЕХНОЛОГИЧЕСКИХ ПАРКОВ

### РЕЗЮМЕ

В результате исследования был сделан вывод, что институты налоговых льгот и освобождений имеют большое значение в общественно-политической, социально-экономической жизни страны. Причина этого в том, что

каждый член общества имеет возможность пользоваться скидками и льготами. Государства особенно заинтересованы в принятии этих мер для обеспечения достойного уровня жизни населения страны, развития инвестиционной активности. В статье описаны виды налоговых льгот, применяемых в индустриальных и технопарках, и их сущность.

**Jalilova Aytan Isa**

**TAX BENEFITS FOR INDUSTRY AND TECHNOLOGY PARKS**

**SUMMARY**

As a result of the research, it was concluded that the institutions of tax concessions and exemptions are of great importance in the social-political, socio-economic life of the country. The reason for this is that every member of the society has the opportunity to use discounts and exemptions. States are particularly interested in taking these measures to ensure a decent standard of living for the country's population, and in developing investment activity. The article describes the types of tax incentives applied in industrial and technology parks and their nature.

**Redaksiyaya daxilolma tarixi: 31.01.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 03.02.2024**
**Çapa qəbul olunma tarixi: 08.02.2024**